# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 avqust 2024-cü il, cümə
№ 147 (6733)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## İlham Əliyev: Azərbaycan-Konqo münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqo Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Deni Sassu Nqessoya təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Bu gün Azərbaycan-Konqo münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Aprel ayında Azərbaycana səfəriniz ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinə yeni təkan vermişdir. Eyni zamanda, bu yaxınlarda COP29-un müəyyən edilmiş Prezidentinin Konqoya səfəri iqlim dəyişmələri ilə mübarizə sahəsində ölkələrimizin tərəfdaşlığının bariz nümunəsidir. İnanıram ki, Azərbaycan ilə Konqo arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, çoxtərəfli müstəvilərdə, o cümlədən Bakıda təşkil ediləcək COP29 çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik".

## Azərbaycanı yeni dövrdə möhtəşəm uğurlar gözləyir

Bax səh. 6

## Mənəvi dəyərlərimiz milli kimliyimizdir...

Bax səh. 8

## Yeni beynəlxalq reytinq naminə...

Bax səh. 7

## Qlobal istiləşmədə antirekord

Bax səh. 7



# Hörmətli seçici!

**2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatılır.**

Çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri Heydər Əliyev yolu ilə bağlıdır. Müstəqillik dönəmində Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsi dövrü kimi həkk olunmuş, tarixi Zəfərimizin bünövrəsi qoyulmuşdur.

Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırmışdır. Bu uğurların zirvə nöqtəsi isə 30 ilədək Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasıdır.

# UĞURLARIMIZIN QISA TƏSVİRİ:

1. İctimai-siyasi sabitlik, milli təhlükəsizlik, vətəndaş həmrəyliyi və xalq-iqtidar birliyi təmin olunmuş, ölkəmizdə azərbaycançılıq ideologiyası əsasında dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızın vahid yumruq kimi birləşərək Azərbaycanın qarşısında duran ən ümdə vəzifənin yerinə yetirilməsinə - tarixi ədalətin bərpasına, respublikamızın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsinə nail olunmuşdur.

2. Tarixiliklə müasirliyin vəhdəti təmin olunmaqla xalqımızın mədəni irsinin qorunması, milli-mənəvi dəyərlərimizə zidd təsirlərin qarşısının alınması, adət-ənənələrimizin yaşadılması istiqamətində sistemli fəaliyyət həyata keçirilmiş və mühüm nəticələr əldə edilmişdir.

3. Azərbaycan milli maraqlara əsaslanan müstəqil xarici siyasət sayəsində bir çox dövlətlərlə dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri quraraq dünyada etibarlı tərəfdaşa çevrilmiş, mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməklə regional və qlobal müstəvidə mövqeyini möhkəmləndirmiş və Cənubi Qafqaz regionunun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilərək müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmuşdur.

4. Demokratik, hüquqi, dünyəvi və unitar dövlət quruculuğu uğurla həyata keçirilmiş, "hakimiyyətin mənbəyi xalqdır" prinsipinə və plüralizmə əsaslanan siyasi sistemin formalaşdırılması sağlam rəqabət mühitində demokratik inkişafa təkan vermişdir.

5. Bütün sahələri əhatə edən çoxşaxəli islahatlar müasir çağırışlara və reallıqlara uyğun, ardıcıl olaraq davam etdirilmiş, dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artırılmış, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanmışdır.

6. Köklü sosial-iqtisadi islahatlar yolu ilə bazar iqtisadiyyatına keçid təmin edilmiş, əlverişli biznes mühiti yaradılmış, müasir infrastruktur quruculuğu, qlobal enerji və nəqliyyat layihələri reallaşdırılaraq iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına nail olunmuşdur.

7. İnsan amili və vətəndaş mənafeyinə əsaslanan sosialyönümlü islahatlar nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılmış, hər bir fərdin səmərəli məşğulluğa və layiqli əməyə çıxışı üçün bütün imkanlar yaradılmış, cəmiyyətin bütün təbəqələri, o cümlədən şəhid ailələri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər kimi sosial cəhətdən həssas qruplar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşdur.

8. Müasir ordu quruculuğu sahəsində sistemli tədbirlərin həyata keçirilməsi nəticəsində silahlı qüvvələrin maddi-texniki bazası möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıq səviyyəsi yüksəldilmiş, Azərbaycan regionda ən güclü orduya və inkişaf etmiş müdafiə sənayesinə malik dövlətə çevrilmişdir. 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilmiş bir günlük antiterror əməliyyatında qazanılan qələbələr sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam təmin olunması Silahlı Qüvvələrimizin qüdrətini əyani şəkildə nümayiş etdirmişdir.

9. Ölkəmizdə tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin reallaşdırılması ilə mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli, sağlam və zəngin mənəviyyatlı vətənpərvər Azərbaycan gəncliyinin formalaşmasına nail olunmuşdur.

10. Ekoloji problemlər daim diqqət mərkəzində saxlanılaraq ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın təmin olunması, su ehtiyatlarının, meşələrin bərpası və mühafizəsi, yaşıllıqların salınması ilə bağlı bir çox tədbirlər həyata keçirilmiş, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilmişdir.

11. Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuş, bu məqsədlə Dövlət Proqramı qəbul edilmiş, keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinə başlanılmış, mühüm infrastruktur layihələri gerçəkləşdirilmiş, iqtisadi fəaliyyətin bərpası və təşviqi istiqamətində məqsədyönlü tədbirlər görülmüşdür.

# Hörmətli seçici!

Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoymuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını, üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranmış, qarşımızda yeni perspektivlər açılmışdır.

Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir.

# YENİ DÖVRÜN YENİ HƏDƏFLƏRİ:

1. Fərdin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etməklə sabitlik mühitinin qorunması, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri və ideoloji təxribatlarla fəal mübarizə aparmaqla ölkəmizin ərazi bütövlüyü, suverenliyi və konstitusiya quruluşuna qarşı hər cür təhdidlərin qarşısının qətiyyətlə alınması.

2. Azərbaycançılıq ideologiyası əsasında xalqımızın milli kimliyi və mədəni müxtəlifliyinin, əsrlərlə formalaşmış milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, o cümlədən ailə institutumuzun mənfi təsirlərdən qorunması, tarix və mədəniyyətimizin daha geniş tədqiq və təbliğ edilməsi, mədəniyyətlərarası dialoq siyasətini davam etdirməklə multikulturalizm və tolerantlığın mənəvi dəyərlərimizin tərkib hissəsi kimi təşviqi.

3. Dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi, beynəlxalq platformalar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxşaxəli işbirliyinin gücləndirilməsi, regionda sülhə və təhlükəsizliyə nail olmaq üçün ardıcıl təşəbbüslər göstərilməsi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri də daxil olmaqla mövcud geostrateji imkanlardan səmərəli istifadə etməklə, çoxvektorlu enerji siyasətini və "yaşıl enerji" gündəliyi əsasında fəaliyyəti davam etdirməklə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin gücləndirilməsi və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, islamofobiya və neokolonializm meyillərinə qarşı fəal mübarizə aparılması, dost ölkələrin siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi.

4. Qanunun aliliyinin təmin edilməsi, insan və vətəndaş hüquqlarının, söz, fikir və ifadə azadlığının qorunması, demokratik təsisatların gücləndirilməsinə və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən tədbirlərin davam etdirilməsi, dövlət orqan və qurumlarında, özəl sektorda şəffaflığın daha da artırılması üçün ictimai institutlara dəstəyin gücləndirilməsi, demokratik inkişaf naminə siyasi partiyalarla fəal dialoq və konstruktiv əməkdaşlığın davam və inkişaf etdirilməsi.

5. İdarəetmədə səmərəliliyin artırılması məqsədilə institusional və struktur islahatlarının davam etdirilməsi, siyasi sistemin inkişaf etdirilməsi və yeni siyasi konfiqurasiyanın möhkəmləndirilməsinə yönəlik təşəbbüslərin reallaşdırılması, dövlətin tənzimləmə funksiyalarının əhatəliliyinin artırılması üçün onların tam rəqəmsallaşdırılması və məmur-vətəndaş təmasının minimuma endirilməsi.

6. İqtisadiyyatın şaxələndirilməsi, xarici təsirlərə dayanıqlılığının gücləndirilməsi, valyuta ehtiyatlarının və adambaşına düşən milli gəlirin artım dinamikasının, maliyyə sabitliyinin qorunması, iqtisadi idarəetmənin müasirləşdirilməsi, daha sağlam rəqabət əsaslanan sahibkarlıq mühitinin inkişaf etdirilməsi, yüksək biliktutumlu və müqayisəli üstünlüyə malik sahələr üzrə dəyər zəncirinin artımının stimullaşdırılması, müasir infrastruktur quruculuğunun sürətləndirilməsi, ölkənin tranzit-logistika potensialının genişləndirilməsi və beynəlxalq nəqliyyat layihələrində fəal iştirakının davam etdirilməsi, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, ərzaq və qida təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi yüksəlişi və insan kapitalının inkişafı üzrə tədbirlərin davam etdirilməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviqi və "yaşıl enerji" məkanının yaradılması istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi.

7. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, fəal məşğulluq tədbirlərinin həyata keçirilməsi, sosial infrastruktur quruculuğunun davam etdirilməsi və sosial xidmətlərin genişləndirilməsi, yeni istehsal sahələrinin yaradılması ilə iş yerlərinin sayının artırılması, özünüməşğulluq proqramının genişləndirilməsi, əməkhaqqı, pensiya və müavinətlərin artırılması siyasətinin, həssas qruplara, o cümlədən aztəminatlı ailələrə, əlilliyi olan şəxslərə, müharibə iştirakçılarına və şəhid ailələrinə hərtərəfli dövlət qayğısının davam etdirilməsi.

8. Ordunun hərbi-texniki təchizatının, silahlı qüvvələrdə mənəvi-psixoloji hazırlıq səviyyəsinin, hərbçilərin sosial müdafiəsinin və təminatının daha da gücləndirilməsi, gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi, beynəlxalq müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi-texniki əməkdaşlıq və müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi, mövcud və proqnozlaşdırılan təhlükə və təhdidlərin xarakteri və miqyası nəzərə alınmaqla ölkənin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi.

9. Milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gəncliyin formalaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətin, Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı, təhsil və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, məşğulluğu və karyera quruculuğu, elmi, mədəni, innovativ və yaradıcılıq potensialının artırılması, könüllülər hərəkatının inkişafı üzrə tədbirlərin davam etdirilməsi.

10. İqtisadi inkişafla ekoloji mühit arasında tarazlığı qorumaqla ətraf mühitin mühafizəsi, yaşıllıqların bərpası və artırılması, su ehtiyatları və enerji resurslarından səmərəli istifadə olunması, yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsi, "yaşıl enerji"nin dünya bazarlarına nəqli və iqlim dəyişmələrinin fəsadlarına qarşı fəal mübarizə tədbirlərinin davam etdirilməsi, "yaşıl dünya" naminə təşəbbüsləri reallaşdırmaqla beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və əhalinin ekoloji maarifləndirilməsi işinin genişləndirilməsi.

11. İşğaldan azad olunmuş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin davam etdirilməsi, regionun iqtisadi potensialından səmərəli istifadə edilməsi ilə ölkə iqtisadiyyatına reinteqrasiyasının həyata keçirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi ilə ətraf mühitin qorunması, dayanıqlı və layiqli məskunlaşmanın təmin edilməsi.

Biz bütün bu hədəfləri yalnız sizin dəstəyinizlə reallaşdıra bilərik.

# “Uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır”





2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 54 saylı Mingəçevir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Aydın Mirzəzadənin Mingəçevir şəhərində seçicilərlə görüşləri keçirilib.

Görüşlər zamanı YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev seçkilərin əhəmiyyətindən bəhs edib, Yeni Azərbaycan Partiyasının ölkəmizə mühüm uğurlar qazandırdığını və qarşıda önəmli hədəflərin dayandığını diqqətə çatdırıb.

Deputatlığa namizəd Aydın Mirzəzadə YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, əldə edilmiş bütün uğurların təməlində xalq-iqtidar birliyi dayanır: “Xalqımız əmindir ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün hədəflərinə çatacaq, yeni zirvələr fəth edəcək”.

A.Mirzəzadə seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Seçicilər isə YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# YAP xalqın dəstəyinə arxalanır





2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 79 saylı Astara seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rəşad Mahmudovun rayonun Ərçivan qəsəbəsində və Şiyəkəran kəndində seçicilərlə görüşləri keçirilib.

YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov ilk dəfə bütün ölkə ərazisində keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən bəhs edib. O, 1993-cü ildən bu günə qədər qatıldığı bütün seçkilərdə qələbə qazanan Yeni Azərbaycan Partiyasının xalqın dəstəyinə arxalandığını və xalqa xidmət göstərdiyini söyləyib.

Deputatlığa namizəd Rəşad Mahmudov partiyanın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, insanların xoş əhval-ruhiyyəsindən, yüksək fəallığından göründüyü kimi, Yeni Azərbaycan Partiyasına xalqın inamı və etimadı böyükdür: “Hər bir seçkinin nəticələri bu etimadın daha da artdığını təsdiqləyir. Çünki YAP yarandığı gündən Azərbaycanın daha da güclənməsi, nüfuzunun artması, xalqın rifahının daha da yüksəlməsi üçün əzmlə çalışır. Partiyanın sözlə əməl birliyi, hər bir təşəbbüsünün, qəbul etdiyi qərarın Azərbaycanın uğurlu gələcəyinə xidmət etməsi onun cəmiyyətdə rolunu artırır, mövqeyini daha da möhkəmləndirir”.

Elnur Rüstəmov, Araz Mehrəliyev, Əskər Zeynalov və Yunus Qulamov çıxış edərək parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# “Partiyamızın qələbəsinə inanırıq!”





2024-cü il sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 42 saylı Sumqayıt birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Hicran Hüseynovanın seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Görüşü giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov partiyanın parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığını vurğulayıb. O, YAP-ın zəngin və şərəfli inkişaf yolu keçərək ümumxalq partiyasına çevrildiyini vurğulayıb.

Deputatlığa namizəd Hicran Hüseynova Yeni Azərbaycan Partiyasının seçki platforması barədə məlumat verib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin liderliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm uğurlardan bəhs edib. Hicran Hüseynova bildirib ki, dövlət başçısı İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan sürətlə inkişaf edib və ərazi bütövlüyünü bərpa edərək milli gücünü artırıb.

Sonra çıxış edən təşviqat qrupunun üzvləri Mirzəağa Rəşidov, Şahin Şəfiyev və Elməddin Bəylərov Yeni Azərbaycan Partiyasının ölkəmizə qazandırdığı nailiyyətlərdən danışaraq seçiciləri partiyanın namizədinə dəstək verməyə çağırıblar. Onlar vurğulayıblar ki, YAP hər zaman xalqın mənafeyindən çıxış edən, Azərbaycanın dövlət müstəqilliyinin qorunması yolunda əzmlə çalışan aparıcı siyasi qüvvədir.

Görüşdə iştirak edən seçicilər öz növbəsində Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini qeyd ediblər. Onlar partiyanın xalq üçün gördüyü işlərin yüksək qiymətə layiq olduğunu bildiriblər. “Partiyamızın qələbəsinə inanırıq”, - deyə vurğulanıb.

Hicran Hüseynova Vətən müharibəsi şəhidləri Vüsal Muradov və Kərim Əhmədəliyevin ailələrini ziyarət edib.

# Yeni hədəflər, yeni zəfərlər...





2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 19 saylı Nərimanov birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Hikmət Məmmədovun qadın seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov qarşıdan gələn parlament seçkilərinin əhəmiyyətindən danışıb və seçiciləri fəal olmağa çağırıb.

Deputatlığa namizəd Hikmət Məmmədov YAP-ın seçki platforması barədə məlumat verib. Daha sonra o, ölkəmizdə həyata keçirilən dövlət qadın siyasəti haqqında danışıb, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini bildirib. Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında fəal iştirak etdiyini söyləyən Hikmət Məmmədov bildirib ki, qadınlar intellektual imkanları, yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfələrini verir, ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq göstərirlər.

Çıxış edən görüş iştirakçıları parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla” şüarı ilə gedən YAP-ın namizədinə səs verəcəklərini bildiriblər. “Uğurlarımızın davamlı olması, yeni hədəflərə çatmaq, yeni zəfərlər əldə etmək üçün bir daha YAP-a etimad göstərəcəyik”, - deyə vurğulanıb.

# Qələbələrə davam!






2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Müşfiq Məmmədlinin Siyəzən şəhər və Zarat kənd seçiciləri ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşiyev çıxış edərək dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycanın qüdrətli dövlətə çevrilməsində müstəsna rol oynadığını bildirib.

Daha sonra çıxış edən deputatlığa namizəd Müşfiq Məmmədli YAP-ın seçki platforması haqqında məlumat verib. O, qazanılan uğurlar fonunda Azərbaycanın yeni dövrə qədəm qoyduğunu və qarşıda bir çox mühüm hədəflərin dayandığını deyib. Əminliklə vurğulayıb ki, qüdrətli Azərbaycan bütün milli məqsədlərin gerçəkləşməsinə nail olacaq: “Qələbə qazanmağa davam edəcəyik!”.

Müşfiq Məmmədli çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd şəhid Sadiq Məmmədovun ailəsini də ziyarət edib.

# “Seçimimiz YAP-ın namizədidir!”






2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 110 saylı Balakən seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nəsib Məhəməliyevin YAP Balakən rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Görüşü giriş sözü ilə açan YAP Balakən rayon təşkilatının sədri Azad Balayev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər xalqımıza tarixi nailiyyətlər qazandırıb: “Həyata keçirilən sosial-iqtisadi və siyasi islahatların uğurlu nəticəsi olaraq dövlətimizin qüdrəti daha da artıb, xalqımızın rifahı daha da yaxşılaşıb”.

Deputatlığa namizəd Nəsib Məhəməliyev YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlu nəticələri və qarşıda duran hədəfləri diqqətə çatdırıb: “Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərlə torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz tam bərpa edilib. Postmüharibə dövründə yeni uğurlara imza atırıq. Bütün bunlar dövlətçilik tariximizin qürurverici səhifələridir”

O, YAP-ın ölkənin aparıcı siyasi qüvvəsi kimi növbəti dəfə xalqın dəstəyi ilə qələbə qazanacağına inamını ifadə edib.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvü Rəşid Musayev, görüş iştirakçıları Naida Dibirova, Aygün Hacıyeva və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədini dəstəkləməyə çağırıblar.

Seçicilər də öz növbəsində Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini ifadə ediblər. “Seçimimiz YAP-ın namizədidir!”, - deyə vurğulanıb.

# “Azərbaycan gəncliyinin seçimi Yeni Azərbaycan Partiyasıdır!”



2024-cü il sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 82 saylı İmişli-Saatlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səyyad Salahlının ilk dəfə səs verəcək gənc seçicilərlə görüşü keçirilib.

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, Azərbaycan dövləti uğurlu gənclər siyasəti həyata keçirir. O qeyd edib ki, Azərbaycan gəncləri cəmiyyətin bütün sahələrində layiqincə təmsil olunaraq mühüm uğurlara imza atırlar.

Deputatlığa namizəd Səyyad Salahlı YAP-ın seçki platformasından ətraflı bəhs edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyi naminə müstəsna xidmətlərindən biri tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin əsasının qoyulmasıdır: “Bu gün gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət göstərməklə Azərbaycanın gələcəyini inşa edir. Bu siyasət mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşması və inkişafına hədəflənib. Təqdirəlayiqdir ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən qürurlu, şərəfli və vətənpərvər Azərbaycan gəncliyi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük fədakarlıq və rəşadət nümayiş etdirməklə döyüş meydanında tarix yazıb - Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında misilsiz rol oynayıb”.

Səyyad Salahlı gənc seçiciləri parlament



seçkilərində fəal iştirak etməyə çağırıb.

Tədbir iştirakçılarından Aqil İsmayılzadə, Orxan Əliyev və digərləri çıxış edərək Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olduğunu vurğulayıb və seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Həmin gün deputatlığa namizəd rayonun Muradxanlı kəndində də görüşlər keçirib.

# Xalqın YAP-a birmənalı dəstəyi ölkəmizin qüdrətinin artmasına xidmət edir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 64 saylı Salyan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sadiq Qurbanovun rayonun Arbatan, Aşağı Kürkənd və Xurşud kəndlərinin seçiciləri ilə görüşü keçirilib.

YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov qeyd edib ki, Azərbaycanın hər bir uğurunda YAP-ın müstəsna rolu var: “YAP suverenliyimizin bərpası ilə yeni dövrə qədəm qoyan Azərbaycanın yeni hədəflərinin həyata keçirilməsinə öz töhfələrini vermək üçün daha böyük səylə çalışır. Partiyanın yeni dövrün çağırışlarına uyğun olaraq növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü ölkə ictimaiyyəti tərəfindən təqdirlə qarşılandı. Şübhə yoxdur ki, xalqımız bu seçkilərdə də partiyanın namizədlərinə dəstək olacaq, yeni hədəflərin reallaşmasına töhfələrini verəcəklər”.

Tədbirdə çıxış edən deputatlığa namizəd Sadiq Qurbanov daim müstəqil Azərbaycanın daha da güclənməsi, müasirləşməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərən YAP-ın bütün seçkilərdə böyük fəallıq nümayiş etdirdiyini və əhəmiyyətli uğurlara nail olduğunu söyləyib. Deputatlığa namizəd bildirib ki, parlament seçkilərində YAP-ın namizədlərinə veriləcək səslər Azərbaycanın qüdrətinin və əhalinin rifahının daha da artmasına xidmət edəcək.

Tədbirdə, həmçinin şəhid atası Rəşad İsayev, təşviqat qrupunun üzvü Malik Kərimov, YAP fəalı Qəfər Məmmədov, seçici



Adıgözəl Məmmədov və digərləri çıxış edərək uğurlarımızın davamı naminə seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər qarşıda duran bütün hədəflərin gerçəkləşməsi üçün YAP-a etimad göstərəcəklərini bildiriblər.

Qeyd edək ki, deputatlığa namizəd Sadiq Qurbanov seçicilərlə fərdi görüşlər də keçirib, Aşağı Kürkənd kəndində Birinci Qarabağ müharibəsi şəhidi Azər Əliyevin ailəsini ziyarət edib.

# “YAP xalqa layiqli xidmət nümunəsi yaradıb”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Samir Vəliyevin qadın seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov bildirib ki, Azərbaycan qadınları bu gün cəmiyyətin bütün sahələrində fəaldırlar. O, qarşıdan gələn növbəti parlament seçkilərində də Nərimanov rayon qadınlarının fəal iştirak edəcəyindən və YAP-ın namizədlərinə səs verəcəyindən əminliyini ifadə edib.

Görüşdə çıxış edən deputatlığa namizəd Samir Vəliyev seçkilərin əhəmiyyəti və YAP-ın seçki platformasından bəhs edib. O söyləyib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qadınlara yüksək qiymət verib: “Bu gün bu müsbət ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının ənənə ilə müasirliyin vəhdətinə və siyasi varislik prinsipinə əsaslanan strateji kursunda gender bərabərliyinin təmin olunması, qadınların müxtəlif sahələrdə fəallığının və rolunun artırılması kimi məsələlər mühüm yer tutur”.

Tədbirdə təşviqat qrupunun üzvü Aynur Pənahova və digər iştirakçılar çıxış ediblər. Onlar Nərimanov rayon qadınlarını seçkilərdə fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.



Seçicilər isə “YAP xalqa layiqli xidmət nümunəsi yaradıb”, - deyə vurğulayaraq Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

# Ölkəmiz üçün yeni perspektivlər yaranıb

Sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 99 saylı Bərdə seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Fatma Yıldırımın YAP Bərdə rayon təşkilatının qərargahında, həmçinin rayonun Yeni Daşkənd və Şatırlı kəndlərində seçicilərlə görüşləri keçirilib.

Görüşlərdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.






YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya qeyd edib ki, Azərbaycanın qazandığı qələbələr yeni hədəflərin reallaşdırılmasını, gələcək uğurların başlanğıcıdır. O, Yeni Azərbaycan Partiyasının parlament seçkilərində möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Deputatlığa namizəd Fatma Yıldırım YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək bildirib ki, Yeni Azərbaycan Partiyası yeniliklər və qələbələr partiyasıdır. Azərbaycanın tarixi Zəfərə imza atması, ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsi, Böyük Qayıdış Proqramının uğurla icra edilməsi və digər mühüm amillər ölkəmiz üçün yeni perspektivlər yaradıb.

Görüşlərdə, həmçinin təbliğat qrupunun üzvləri - şəhid anaları İsbət Hətəmova, Xuraman Mirzəyeva çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımıza Zəfər sevinci yaşatmasından qürurla bəhs ediblər.

Çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# “YAP-ı dəstəkləməklə parlaq gələcəyi seçmiş olacağıq”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 59 saylı Quba seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əlibala Məhərrəmzadə Quba rayonunda Qırmızı Qəsəbə seçiciləri ilə görüş keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova çıxış edərək 1 sentyabr - növbədən-






kənar parlament seçkilərinin əhəmiyyəti haqqında danışıb: “Əminik ki, YAP-a böyük inam və etimad bəsləyən xalqımız bu dəfə də seçkilərdə fəal iştirak edərək qələbələr partiyasına öz dəstəyini göstərəcək”.

Deputatlığa namizəd Əlibala Məhərrəmzadə YAP-ın seçki platforması haqqında məlumat verib. O, partiyanın Azərbaycan dövlətçiliyinin inkişafında mühüm xidmətlərini vurğulayıb, hazırda ölkəmizdə xalqla iqtidar arasında sarsılmaz birlik olduğunu deyib: “Ölkəmiz gündən-günə daha da qüdrətlənir və xalqımızın rifahı daim yaxşılaşır. Bütün bunları şərtləndirən ən mühüm amil isə, təbii ki, xalq-iqtidar birliyidir. Bu birlik sarsılmazdır”.

Görüşdə seçki qərargahının üzvləri İlham Qaraqurbanlı, Pisax İsakov və başqaları çıxış edərək “YAP-ı dəstəkləməklə parlaq gələcəyi seçmiş olacağıq”, - deyə vurğulayıblar.

Qeyd edək ki, deputatlığa namizəd Vətən müharibəsi şəhidləri Cəmil Xələfov, Aqil Məlikov və Aydəmir Hacıyevin ailələrini ziyarət edib.

# “Xalqımız YAP-ın fəaliyyətini yüksək qiymətləndirir”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 12 saylı Xəzər birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvanə Piriyevanın YAP Xəzər rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov qeyd edib ki, YAP hər zaman qanunun aliliyi,





azadlıq və bərabərlik prinsiplərini əsas götürür, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir. O, parlament seçkilərinin xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacağını vurğulayıb.

Çıxış edən deputatlığa namizəd Pərvanə Piriyeva YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi, dünyəvi və unitar dövlət quruculuğunu özünün inkişaf yolu seçib: “Demokratik dəyərlərə sədaqət, plüralizm, insanların azadlığı və bərabərliyi, ictimai rəyin nəzərə alınması, YAP-ın fəaliyyətinin siyasi əsaslarıdır. Ona görə də xalqımız YAP-a inanır, onun fəaliyyətini təqdir edir və daim etimad göstərir”.

Çıxış edən seçicilər qeyd ediblər ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının fəaliyyətini yüksək qiymətləndirir. Onlar ümumxalq partiyası olan YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# “Məqsədimiz yeni hədəflərin reallaşdırılmasıdır”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 86 saylı Ağcabədi seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Tahir Rzayevin rayonun Kəbirli və Qaradolaq kəndlərində seçicilərlə görüşü keçirilib.

Görüşlərdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Çıxış edən YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpasının yeni reallıqlar yaratdığını deyib. O, Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığına diqqət çəkərək həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qazanılan uğurlar və qarşıda duran hədəflərdən danışıb, seçiciləri partiyanın namizədinə səs verməyə çağırıb.

Deputatlığa namizəd Tahir Rzayev ölkəmizin siyasi sistemində aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfərdən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatıldığını deyib. Onun sözlərinə görə, əldə olunan çoxsaylı qələbələr YAP-ın ümumxalq partiyası olduğunu sübut edib. Hazırda qarşıda dayanan başlıca məqsəd yeni hədəflərin reallaşdırılmasıdır.

Çıxış edən seçicilər - Ədalət Əliyev, Famil Orucov, Nəbi Məmmədov, Surxay İmanov, Zülfüqar Əliyev və Xəyalə Həmzəyeva YAP-ın namizədini dəstəkləyəcəklərini bildiriblər.



# “Davamlı qələbələr naminə YAP-ın namizədlərinə səs verək!”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 98 saylı Bərdə-Tərtər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Xanlar Fətiyevin Tərtər rayonunun Mamırlı və Hüseynli kəndlərində seçicilərlə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya çoxsaylı qələbələrin əldə olunmasında ümumxalq partiyası olan YAP-ın böyük rola malik olduğunu bildirib. “Hazırda qarşımızda duran başlıca məqsəd yeni qələbələrə nail olmaqdır”, - deyən F. Şadlinskaya vətəndaşları seçki prosesində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıb: “Davamlı qələbələr naminə YAP-ın namizədlərinə səs verək!”.

Deputatlığa namizəd Xanlar Fətiyev YAP-ın seçki platforması barədə məlumat verib. O, Azərbaycanın müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə yekun vuraraq yeni dövrə qədəm qoyduğunu qeyd edib. Bildirib ki, seçkilərin bütün ölkə ərazisində keçirilməsi müasir dövlətçilik tariximizin qürurverici səhifəsidir.

Görüşlərdə təşviqat qrupunun üzvləri Mehparə Qəribova, İsbət Hətəmova, Məhərrəm Şəfiyev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər Oruc Qarayev, Kamil İsmayılov, Mahmud Mahmudov, İsmayıl Əliyev, Solmaz Həsənova, Sərxan Hüseynov və başqaları çıxış edərək YAP-ın namizədini dəstəkləyəcəklərini bildiriblər.

Qeyd edək ki, deputatlığa namizəd Xanlar Fətiyev Tərtər rayonunun Poladlı kəndində şəhidlər Xaliq Abbasov və Elşən Abbasovun, Hüseynli kəndində isə şəhid Şahin Əmrahovun ailələrini ziyarət edib.



# Yeni Azərbaycan Partiyası gəncliyin inkişafına xüsusi diqqət göstərir

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 84 saylı Füzuli seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Namiq Məmmədovun ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu sahədə mühüm uğurlar qazanıldığını bildirib. O qeyd edib ki, Azərbaycan gəncliyi ölkəmizi dünya miqyasında layiqincə təmsil etməklə yanaşı, 44 günlük Vətən müharibəsində yüksək vətənpərvərlik ruhu, mənəvi dəyərlərə sadiqlik nümayiş etdirərək qəhrəmanlıq dastanı yazıb.

Deputatlığa namizəd Namiq Məmmədov YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, Ulu Öndər gənclər siyasəti sahəsində önəmli qərarlar qəbul etməklə, mühüm fərman və sərəncamlar imzalamaqla bugünkü - müasir, qüdrətli və qalib Azərbaycanın sağlam bünövrəsini yaradıb. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı istiqamətində sistemli fəaliyyət həyata keçirilir: “Təqdirəlayiqdir ki, Azərbaycan gəncliyi hər zaman dövlət başçısının inam və etimadını doğruldub. Yeni Azərbaycan Partiyası da gəncliyin inkişafına xüsusi diqqət göstərir”.



Namiq Məmmədov gəncləri parlament seçkilərində fəal iştirak etməyə və layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin şəhid Orxan Həmidovun anası Tamella Məmmədova çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Öz növbəsində çıxış edən gənc seçicilər də YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Namiq Məmmədov şəhid mayor Elnur Quliyevin ailəsini ziyarət edib.

# “Yeni qələbələrə müvəffəq olmaq gücündəyik!”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvanə Vəliyevanın YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov bildirib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunması ilə yeni dövr başlanıb: “Qazandığımız möhtəşəm uğurların təməlində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Partiyamızın seçki platformasında Azərbaycanın qazandığı uğurlar və qarşıdakı dövrün hədəfləri öz əksini tapıb. Yeni Azərbaycan Partiyasına xalqın sevgisi sonsuzdur”.

Deputatlığa namizəd Pərvanə Vəliyeva Azərbaycanın müstəqil dövlət kimi inamla inkişaf etdiyini deyib: “Ümummilli Lider Heydər Əliyev Azərbaycanı tənəzzüldən xilas edərək inkişaf yoluna çıxarıb. Ulu Öndərin siyasi varisi cənab İlham Əliyev xalqımıza bənzərsiz uğurlar qazandırıb və Zəfər sevinci yaşadıb. Ölkəmiz dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer tutur və biz daha böyük uğurlara - yeni qələbələrə müvəffəq olmaq gücündəyik”.

Deputatlığa namizəd seçiciləri 1 sentyabr parlament seçkilərində fəal olmağa çağırıb.

Tədbirdə təşviqat qrupunun üzvləri Mürvət Əsgərov, Tofiq Məmmədov və Nizami Mehdizadə, namizədin nümayəndəsi Cəsarət Hüseynzadə çıxış edərək YAP-ın cəmiyyətdə artan nüfuzundan geniş bəhs edərək seçiciləri partiyanın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, deputatlığa namizəd Xətai rayonu, Natiq Əliyev küçəsində yaşayan seçicilərlə də görüşüb.



# Daha güclü Azərbaycan naminə!

Sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 121 saylı Laçın seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rövşən Muradovun Qaradağ rayonu, Ümid qəsəbəsi və “Qobu Park - 1” yaşayış massivində məskunlaşmış laçınlı seçicilərlə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov Partiyanın parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığına diqqətə çatdıraraq Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından geniş bəhs edib. O qeyd edib ki, yeni dövr Azərbaycana yeni uğurlar vəd edir.

Deputatlığa namizəd Rövşən Muradov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına layiqli şəkildə qayıdışının təmin edilməsi qarşıda duran önəmli hədəflərdəndir: “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu məqsədlə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” qəbul edilib və hazırda icra olunmaqdadır. Bu proses çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevrilməklə daha güclü yeni Azərbaycanın parlaq gələcəyinə töhfə verəcəkdir”.



Knyaz Məmmədov, İbrahim Məmmədov və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.



# “Xalqımız Heydər Əliyev yoluna sədaqətini bir daha ifadə edəcək”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 50 saylı Abşeron üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş Ramid Namazovun Abşeron rayonu, Saray qəsəbəsində seçicilərlə görüşü keçirilib.



Tədbirdən əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsi və Saray qəsəbəsindəki Şəhidlər xiyabanı ziyarət olunub. Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev seçkilərin əhəmiyyətindən, parlament seçkilərinə hazırlıq prosesindən danışıb və seçiciləri seçki prosesində fəal olmağa çağırıb.

Deputatlığa namizəd Ramid Namazov qarşıdan gələn parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatılan YAP-ın seçki platforması barədə ətraflı məlumat verib. O, son 30 ildə qazanılan uğurlar və qarşıda duran hədəflərdən bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqı növbəti dəfə Yeni Azərbaycan Partiyasına dəstəyini ifadə etməklə Heydər Əliyev yoluna sədaqətini nümayiş etdirəcəkdir.



Şəhid Vidadi Zalovun atası Nizami Zalov və digər çıxış edənlər seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Azərbaycanı yeni dövrdə möhtəşəm uğurlar gözləyir



**55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Müşfiq Məmmədli yap.org.az saytına müsahibə verib.**

**- Müşfiq müəllim, Azərbaycanın möhtəşəm Zəfərindən sonra yeni reallıqlar və çağırışlar meydana çıxıb. Mövcud vəziyyət ölkəmiz və bütövlükdə region üçün nə vəd edir?**

- Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, Azərbaycan adlı dövlətin varlığından danışmaq mümkün deyildi. Ulu Öndər Azərbaycanı qorudu və dünyada söz sahibi etdi. Onun düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində yaradılan möhkəm təməl 2003-cü ildən başlanan yolun uğurlu davamını şərtləndirdi. Azərbaycan müdrik dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası əsasında dünyaya Günəş kimi doğdu. Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti Azərbaycanın nüfuzlu, qüdrətli və qalib dövlət kimi davamlı yüksəlişini təmin etdi.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan bu gün inkişaf yolunda inamla addımlayır. 30 ilə yaxın bu arzu ilə yaşadıq ki, torpaqlarımız işğaldan azad edilsin, soydaşlarımız doğma yurd-yuvalarına qayıtsınlar. Bu günün çox uzaqda olmadığına əmin idik. Qarabağ məsələsi bizim üçün milli qürur məsələsi idi və Azərbaycan 30 ilə yaxın bu problemin sülh yolu ilə həllinə səy göstərdi. Lakin son nəticədə döyüş meydanında möhtəşəm Zəfər qazanaraq ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olduq.

Şanlı Qələbəmiz Azərbaycanın keçdiyi şərəfli inkişaf yolunun, bütün sahələrdə qazandığı möhtəşəm uğurların təqdimatıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, ötən il keçirilən bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkəmizin qarşısında yeni üfüqlər açır.

Ötən dövrdə qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetirildi. Bu gün xalqımız tarixi Zəfərimizin reallıqlarını yaşayır. Yeni dövr yeni hədəflərlə zəngindir. Qarabağımızın və Şərqi Zəngəzurumuzun cənnət məkana çevrilməsi, Böyük Qayıdış Proqramına uyğun olaraq soydaşlarımızın öz doğma yurdlarına qayıdışı əsas hədəflərdəndir. Bunun üçün qısa zamanda bütün imkanların yaradılması Azərbaycanın gücünün, ən əsası, bu torpaqların əsl sahibi olduğunun əyani ifadəsidir. Ölkəmizi yeni dövrdə möhtəşəm uğurlar gözləyir.

**- Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Yeni reallıqlar fonunda seçkilərin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Müstəqillik tariximizdə ilk dəfə olaraq parlament seçkiləri bütün ölkə ərazisində keçiriləcək. Bu, hər birimiz üçün qürur mənbəyi olmaqla birlikdə dövlətimizin qüdrətinin ifadəsidir.

Yeni Azərbaycan Partiyası bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb. Partiyanın seçki platformasında ötən 30 ilin möhtəşəm uğurları, qarşıdakı dövrün hədəfləri əks olunub. Siyasi sabitliyin, milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, ölkənin müdafiə qabiliyyətinin artırılması, Zəfərimizin reallıqları əsasında Böyük Qayıdış Proqramının icrası, Azərbaycanın regionda və dünyada mövqeyinin daha da möhkəmləndirilməsi əsas hədəflər sırasındadır.

Yeni Azərbaycan Partiyasının hədəfləri ölkəmizin milli məqsədlərini əks etdirir. Partiyamız bu zamana qədər Azərbaycanın yüksəlişində müstəsna rol oynamış, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa töhfələrini verəcəkdir.

Yeni Azərbaycan Partiyasına xalqın inamı sonsuzdur. Partiya bu inamı, etimadı qorumaq və daha da artırmaq üçün daim səylər göstərir. YAP-ın hər bir seçkiyə qələbə əzmi ilə qatılmasını şərtləndirən əsas amil də məhz xalqın partiyası olmasıdır.

**-Müşfiq müəllim, seçkiqabağı təşviqat mərhələsi davam edir. Seçicilərlə keçirilən görüşlər ümumilikdə hansı qənaətə gəlməyə əsas verir?**

- Azərbaycan cəmiyyəti kifayət qədər intellektualdır, bütün hadisə və proseslərə düzgün yanaşmağı, məsələləri doğru dəyərləndirməyi bacarır.

Azərbaycanın keçdiyi şərəfli yol, Yeni Azərbaycan Partiyasının inkişafımıza müstəsna töhfələr verməsi inkaredilməz reallıqdır. Hər günü müstəqillik tarixinə uğur səhifəsi kimi yazan Azərbaycan, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur mənbəyidir. Xalqımız Azərbaycanı qalibiyyətə qovuşduran Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək yeni hədəflərə doğru inamla addımlayır.

Seçicilərlə görüşlər xalqın öz Prezidentinə, onun sədri olduğu Yeni Azərbaycan Partiyasına inamını bir daha nümayiş etdirir. Səsləndirilən fikirlərdə bu məqam xüsusi qeyd edilir ki, güclü lideri olan xalq xoşbəxt və məğlubedilməzdir.

Xalqımız Heydər Əliyev yoluna sadiqdir, ölkəmizin parlaq gələcəyinə inanır və bunu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstəyi ilə ifadə edir. Heç şübhəsiz, 1 sentyabr - növbədənkənar parlament seçkiləri də bu inam və etimadın, birlik və həmrəyliyin daha bir ifadəsi olacaqdır.

# Növbəti zəfərlərə doğru...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ülviyyə Həmzəyevanın seçicilərlə görüşü keçirilib.



Ülviyyə Həmzəyeva Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib. O, ölkəmizin qazandığı uğurları diqqətə çatdırıb, qarşıda duran hədəflərdən bəhs edib. "Hər birinizi seçkilərdə fəal iştirak etməyə və Azərbaycanın gələcəyinə - dünənin, bu günün və sabahın partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırırıq", - deyə deputatlığa namizəd vurğulayıb.

Öz növbəsində seçicilər də 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Qələbə əzmindəyik!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Eyvaz Qurbanovun Qəbələ rayonunun Bum, Qəmərəvan qəsəbələrindən, Zərgərli, Tikanlı və Abrıx kəndlərindən olan seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov bildirib ki, ölkəmizdə bütün sahələri əhatə edən islahatlar aparılır: "Azərbaycan iqtisadiyyatı inkişaf edir, ölkəmiz daha da qüdrətlənir. YAP Azərbaycanın inkişafında müstəsna rol oynayır. 1993-cü ildən etibarən partiyamız ölkəmizdə keçirilən bütün seçkilərdə qalib olduğu kimi, bu dəfə də qələbə əzmindədir".



Deputatlığa namizəd Eyvaz Qurbanov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad edərək tarixi ədalətin bərpasına nail olub: "Dövlət başçısının məqsədyönlü siyasəti nəticəsində yeni reallıqlar yaradan Azərbaycan dünyada söz sahibinə çevrilib".

Tədbirdə, həmçinin İlkin Lətifov, Fərman İbrahimov, Azər Əfəndiyev, Hürü İbrahimova, Rəşadət Nurədinov, Nizami Abdullayev, Müslüm Cabbarov, Sakit Bəkirov, Ramiz Mikayılov, Ədalət Tağıyev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# MSK-nın maarifləndirmə proqramı çərçivəsində təşkil olunan treninqlər başa çatır

Sentyabrın 1-də ölkəmizdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün təşkil olunan treninqlər Ağcabədi rayonunda uğurla davam edib. "Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, 85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsi üzrə 366 aşağı seçki komissiyası üzvünü əhatə edib.

Treninq zamanı hər bir aşağı seçki komissiyası üzvünə həm təlimlərdə istifadə etmələri, həm də seçki günü prosedurları ilə yaxından tanış olmaları məqsədilə MSK-nın hazırladığı "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələrinə dair protokol nümunəsi, habelə digər əyani və metodiki vəsaitlər verilib.

Aşağı seçki komissiyaları üzvləri üçün maarifləndirici treninqlər 86 saylı Ağcabədi seçki dairəsində də mütəşəkkil qaydada davam edib.

Dairə seçki komissiyasının sədri Famil İsmayılov bildirib ki, treninqlərə dairənin tərkibinə daxil olan 54 seçki məntəqəsindən 324 nəfər komissiya üzvü cəlb edilib. Kiçik qruplar şəklində gün ərzində iki dəfə keçirilən treninq zamanı seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə prosesi, səslərin hesablanması, protokolun doldurulması və sair mövzularında təqdimatlar edilib, müzakirələr aparılıb və meydana çıxan suallar cavablandırılıb.

Qeyd edək ki, 86 saylı seçki dairəsi üzrə treninqlər bu gün başa çatacaq.



# Yeni beynəlxalq reytinq naminə...

Məlum olduğu kimi Dünya Bankı (DB) ənənəvi "Doing Business" hesabatının əvəzində yeni beynəlxalq iqtisadi qiymətləndirmə indeksini müəyyən edən "Business Ready" (B-Ready) tədqiqatının hazırlanması istiqamətində təhlillər aparmaqdadır. Yeni hesabata əsasən, müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın biznes sektoruna birbaşa və dolayısı ilə aidiyyəti olan sahələrin, xüsusilə də vergi, gömrük, ticarət, maliyyə, biznes mühiti və s. indikatorlar üzrə qiymətləndirmələr əsasında yekun rəy veriləcək. DB-nin yeni metodologiyasına əsasən, həmin ölkələrin beynəlxalq biznes mövqeyi müəyyənləşəcək. "Business Ready" layihəsi ölkədə biznes sahələrinin funksionallığı, bütövlükdə özəl sektorun inkişafına təsir göstərən biznes qaydaları və dövlət xidmətlərinin müqayisəli qiymətləndirilməsi kimi komponentlərə söykənir. Ona görə də ölkələr "Doing Business"i əvəz edəcək "Business Ready" hesabatında layiqli mövqe əldə etmək üçün öz biznes və investisiya mühitinin təkmilləşdirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, biznesə daha əlçatan imkanların yaradılması istiqamətində islahatları davam etdirməkdədir.

Azərbaycan hökuməti də "Business Ready"i tədqiqindən irəli gələn tövsiyələri nəzərə alaraq xeyli müddətdir ki, biznes və investisiya mühitinə təsir edən müxtəlif sahələrdə institusional islahatları, ələlxüsus da vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin həlli kimi əsas alt-indekslər üzrə təkmilləşdirmələri həyata keçirməkdədir. İndiyə kimi ən mühüm institusional addımlardan biri ötən ay qüvvəyə minən Rəqabət Məcəlləsinin hazırlanması olub. Bununla yanaşı, biznesin fəaliyyətinə təsir edən əsas amillərdən biri olan vergi mühitinin və vergi-biznes mühiti səmərəliliyinin artırılması ilə bağlı təkmilləşdirmələr yekunlaşmaqdadır.

Dövlət Vergi Xidməti yeni reallıqları nəzərə alaraq Dünya Bankı ilə müasir çağırışlar fonunda "Əlverişli biznes mühiti" adlı yeni layihə çərçivəsində islahatları və iqtisadi təşəbbüslərə yer verməyi planlaşdırır. Belə ki, "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələr həyata keçirilib. Yol Xəritəsinə uyğun olaraq biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində 30-dan çox tədbir həyata keçirilib. Biznesin qeydiyyatının sadələşdirilməsi çərçivəsində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, yerli və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib, xarici mənşəli sənədlərin elektron portal üzərindən notariusa göndərməklə məsafədən tərcüməsinin notariat qaydasında təsdiqlənməsi xidmətindən yararlanaraq müvafiq vergi orqanlarına elektron formada təqdim etmək imkanı yaradılıb. Əmək, Mülki və İnzibati Xətalar Məcəllələrinə dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq iyun ayında Milli Məclis tərəfindən təsdiqlənib. Həmçinin, 2024-cü ildən kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı "SİMA" elektron imzanın tətbiqinə başlanılıb.

"Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində 2 altindikator üzrə 4 komponent çərçivəsində 16 müxtəlif tədbirin icrası ilə bağlı işlər yekunlaşmaqdadır. "Vergitutma" indikatoru üzrə 2024-cü il üzrə Yol Xəritəsi üzrə isə 6 altindikator üzrə 9 komponent çərçivəsində 42 müxtəlif tədbirin icrası nəzərdə tutulur ki, vergi qaydalarının aydınlığı və şəffaflığını, ətraf mühit vergilərini, vergi inzibatçılığının rəqəmsallaşdırılmasını, vergi auditi, mübahisələrin həlli mexanizmi və vergi orqanında idarəetmə tədbirlərini əhatə edir. Bu işlər çərçivəsində prosesdə iştirak edən dövlət qurumlarının məlumat bazalarının əlaqələndirilməsi prosesinin əhatə dairəsinin genişləndirilməsi, benefisiar mülkiyyətçinin reyestrinin aparılması ilə əlaqədar texniki şəraitin təmin olunması, kommersiya hüquqi şəxslərə dair məlumatlarda sonrakı dəyişikliyin proaktiv qaydada qeydiyyata alınması imkanının yaradılması nəzərdə tutulur. Həmçinin müəssisələrin fəaliyyətinin çevikliyinin təmin olunması və sosial maraqlarının qorunması, xarici mənşəli beynəlxalq sənədlərin informasiya sistemlərində elektron rəsmiləşdirilməsinin asanlaşdırılması və "Elektron notariat" informasiya sisteminin tətbiqi, digər elektron infrastrukturaların çevikliyinin artırılması islahat təşəbbüsləri sırasında yer alır.

"Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi üzrə də müvafiq təkmilləşmələr aparılıb.




## Azərbaycan "Doing Business"i əvəz edən "Business Ready" hesabatında layiqli yer tutmaq üçün yeni islahatlar həyata keçirir

Əmlak əməliyyatları üçün onlayn xidmətlərin və məlumatların mövcudluğu, qarşılıqlı fəaliyyəti və infrastrukturun etibarlılığı təmin edilib, Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı informasiya sistemi yaradılıb. Eyni zamanda daşınmaz əmlakla bağlı dövlət xidmətləri üzrə mobil tətbiqin istifadəyə verilməsi nəzərdə tutulur ki, bu sistem Dövlət Vergi Xidmətinin məlumat bazasının daşınmaz əmlakın dövlət reyestri informasiya sisteminə inteqrasiyasını təmin edəcək.

Yeni islahatlar çərçivəsində biznes sektorunun sosial maraqlarının qorunması, kommunal xidmətlər, işçi qüvvəsi, biznes mübahisələri və s. sahələrdə sadələşdirilmiş prosedurların tətbiqi, startaplar, mikro və kiçik sahibkarlıq subyektləri üçün kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində yeniliklər də mühüm yer tutur.

Beləliklə, aparılan islahatların başlıca məqsədi Azərbaycanın Dünya Bankının yeni təkmilləşdirilmiş və müasir meyarlar üzrə qiymətləndiriləcək hesabatında öz layiqli yerini təmin etməkdən ibarətdir. "Business Ready" hesabatının 2024-cü ilin sonlarında dərc olunması nəzərdə tutulur və Azərbaycan Dünya Bankının yeni və daha şəffaf hesabatında islahatçı ölkələr qrupunda qalmaq iddiasındadır. Yeni hesabatdan irəli gələn meyarları təkmilləşdirməklə Azərbaycan həm də xarici biznes tərəfdaşları ilə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərini inkişaf etdirmək və beynəlxalq müstəvidə yüksək reytinqlərə nail olmaqla ölkəmizin investisiya cəlbediciliyini yüksəltməyi hədəfləyib.

***ELBRUS CƏFƏRLİ***

# Qlobal istiləşmədə antirekord

Hazırda iqlim məsələləri qlobal gündəliyin əsas çağırışlarından birinə çevrilib. Güclü sənaye inkişafının, avtomobillərin sayının və atmosferə atılan zərərli qazların həcminin artması nın iqlim tarazlığının pozulmasına gətirib çıxardığı bildirilir.

Dünyanın müxtəlif qütblərində vəziyyət fərqlidir. Bəzi ölkələrdə quraqlıq hökm sürür, kəskin su çatışmazlığı ciddi səhiyyə problemlərinə yol açır. Digər ölkələri qasırğalar, sel suları cənginə alıb. Kiçik ada dövlətlərində vəziyyət mövcudluq, həyatda qalmaq səviyyəsinə qədər gərginləşib. İnsanlar onları əhatə edən okeanlarda göz işlədikcə uzanıb gedən su səthinin sürətlə qalxmasını müşahidə edirlər. Tunelin sonunda isə işıq görünmür...

## Artıq 15 temperatur rekordu qırılıb

Bu ilin əvvəlindən ekstremal hava hadisələrinin tez-tez baş verməsi və iqlim dəyişikliklərinin güclənməsi nəticəsində 15 temperatur rekordu qırılıb. "The Guardian" nəşrinin məlumatına görə, bu barədə iqlim tarixçisi Maksimiliano Herrera bildirib.

Onun sözlərinə görə, ilk altı ayda misli görünməmiş rekordların sayı heyrətləndirici idi. "Bu miqdarda ekstremal istilik hadisələri indiyə qədər görülən və ya mümkün hesab edilənləri üstələyir. 2024-cü ilin fevral-iyul ayları bütün statistik göstəricilər üzrə ən yüksək dövr olub", - deyə o qeyd edib.

Bəzi günlərdə minlərlə monitorinq stansiyaları yeni aylıq maksimal və ya minimal rekordlar qırır. Gecələr yüksək temperatur o deməkdir ki, insanların və ekosistemlərin davam edən istidən özlərinə gəlmək üçün çox az vaxtı var. Məsələn, iyulun sonunda Çinin Yueyan bölgəsi gecə saatlarında görünməmiş yüksək 32 dərəcəlik temperaturdan, təhlükəli dərəcədə yüksək rütubətdən əziyyət çəkib.

Eyni zamanda, bütün zamanların milli rekordlarının coğrafi diapazonu heyrətləndiricidir. Meksika iyunun 20-də Tepaçedə 52 dərəcəlik zirvəsini təkrarlayıb. Dünyanın digər tərəfində, Kokos adalarının Avstraliya ərazisində temperatur bu il üçüncü dəfə aprelin 7-də 32,8 dərəcəyə çatıb.

Lakin ən güclü istilik tropiklərdə cəmləşib. İyunun 7-də Misir Asuanda 50,9 dərəcəlik milli maksimum qeydə alınıb. İki gün bundan əvvəl Çad Fayedə 48 dərəcəlik milli rekordunu təkrarlayıb. Mayın 1-də Qana Navronqda 44,6 dərəcəlik yeni zirvəyə çatıb, Laos isə Tha Nqonda 43,7 dərəcəlik yeni istilik səviyyəsinə daxil olub. Herreranın sözlərinə görə, tropiklər 15 ay ardıcıl olaraq hər gün rekordlar qırır.

Avropa İttifaqının aparıcı monitorinq agentliyi olan "Copernicus" İqlim Dəyişmələri Xidməti bu yaxınlarda bildirib ki, iyun ayı ardıcıl olaraq aylıq temperatur rekordu vuran 13-cü ay olub.

Ümumdünya Meteorologiya Təşkilatı, həmçinin bu il ən azı 10 ölkədə temperaturun 50 dərəcədən yuxarı olduğunu qeyd edib.

Ekspertin sözlərinə görə, əvvəllər ekstremal istilər insan fəaliyyəti nəticəsində yaranan qlobal istiləşmə və "El Ninyo" təbiət fenomeninin - Sakit okeanda suyun yuxarı qatının kəskin istiləşməsi ilə əlaqələndirilirdi. "Bu il isə "El Ninyo" təsir gücünü itirir, lakin buna baxmayaraq, temperatur rekordlarının sayı yalnız artıb", - deyə o vurğulayıb.



## Hindistanda texnogen iqlim dəyişikliyi səbəbindən baş verən torpaq sürüşmələri

Qlobal istiləşmədən əslində Yer üzünün bütün ölkələri təsirlənir. Beynəlxalq tədqiqat qrupu bir qədər bundan əvvəl Hindistanın cənubundakı Kerala əyalətində 200-dən çox insanın ölümü ilə nəticələnən torpaq sürüşmələrinin texnogen iqlim dəyişikliyi səbəbindən baş verdiyi və bu fəlakətə təxminən 10 faiz artan şiddətli yağışların səbəb olduğu qənaətinə gəlib.

Ekstremal hava şəraitində iqlim dəyişikliyinin rolunu araşdıran "World Weather Attribution" qrupunun dərc etdiyi araşdırmada deyilir ki, dünya mədən yanacaqlarından imtina etməsə, Keralada birgünlük leysan yağışları daha 4 faiz artacaq. Hesabatda deyilir: "İqlim dəyişikliyinin səbəb olduğu yağıntıların artması gələcəkdə baş verə biləcək sürüşmələrin potensial sayını artıra bilər".

Meşələrin qırılmasının və mədən işlərinin minimuma endirilməsi, təhlükəli yamacların bərkidilməsi və həssas əraziləri qorumaq üçün istinad strukturlarının tikintisi gələcəkdə bənzər fəlakətlərin qarşısını almaq üçün tövsiyə olunan tədbirlər sırasında yer alır.

Bəzi ekspertlər "Reuters" agentliyinə bildiriblər ki, sürüşmələrdən iki həftə əvvəl yağan güclü yağışlar torpağı yumşaldıb. Bununla yanaşı, Hindistanın bu ştatında həddindən artıq tikinti işləri və nəzarətsiz turizm də bu fəlakətə səbəb ola bilər.

## Nigerdə daşqınlar nəticəsində 52 ölüm

İqlim dəyişmələri Nigerdə də faciəyə səbəb olub. Belə ki, son iki gündə bu ölkədə daşqınlar nəticəsində ən azı 52 nəfər ölüb. Bu barədə "ActuNiger" portalı məlumat yayıb.

Təbii fəlakət güclü yağışların yağdığı qərb rayonlarını əhatə edib. Portalın məlumatına görə, xilasetmə işlərinə başlanılıb, qurbanların sayı dəqiqləşdirilir. Təbii fəlakətin baş verdiyi ərazilərdə yollar dağılıb, əkin sahələri sıradan çıxıb.

Qeyd edək ki, Nigerdə iki həftə əvvəl başlayan yağış mövsümü ən azı 94 nəfərin həyatına son qoyub, 93 nəfər yaralanıb, ümumilikdə 137 mindən çox insan zərər çəkib.

## Yunanıstanda meşə yanğınları

Qlobal istiləşmənin nəticəsi olaraq ayrı-ayrı ölkələrdə meşə yanğınlarının sayı da artıb. Bu həftə Yunanıstanın Afina şəhərinin şimal-şərqindəki meşə yanğını kifayət qədər böyük ərazini əhatə edib. Xarici nəşrlər Avropa İttifaqının peyk xəritələri agentliyinin məlumatlarına istinadən bu barədə məumatlar yayıblar.

"Yanğın qeydə alınan ərazi Manhettendən təxminən iki dəfə böyük olub, alov paytaxtın kənarında aparılan genişmiqyaslı işlər nəticəsində lokallaşdırılıb", - deyə məlumatda bildirilir.

Yunanıstan mətbuatının məlumatına görə, qonşu Türkiyə, həmçinin 9 ölkə Yunanıstana təyyarə və helikopterlər də daxil olmaqla yardım göndərib.

Afina Milli Rəsədxanasının yenilənmiş hesablamalarına görə, son səkkiz il ərzində Attika bölgəsində 450 kvadratmetr sahə yanıb. Qeyd edək ki, avqustun 11-də baş verən yanğın nəticəsində bir nəfər ölüb, onlarla insan yaralanıb. Yanğın ən azı 100 evi məhv edib.

## Son 50 ildə ən çox sel hadisəsi

Qeyd etdiyimiz kimi, qlobal iqlim dəyişikliklərinin fəsadlarından heç bir ölkə sığortalanmayıb. O cümlədən arzuolunmaz təbiət hadisələri respublikamızda da müşahidə edilir. 2024-cü ilin iyul ayında intensiv leysan xarakterli yağışlar nəticəsində Böyük və Kiçik Qafqaz, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçib.

İyul ayında ümumi olaraq ölkə üzrə 43 sel hadisəsi qeydə alınıb ki, bu da 2023-cü ilin analoji ayı ilə müqayisədə 2,7 dəfə çox olmaqla, son 50 il ərzində ən çox sel hadisəsi olan iyul ayı kimi qeydə alınıb. Bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib.

Onun sözlərinə görə, iyul ayı ərzində ölkənin yerli çaylarında, xüsusilə Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsi ərazilərindən axan əksər çaylarda sululuq normadan yüksək, bəzi çaylarda isə normadan aşağı olub.

***MÜBARİZ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**








## Tarixımizi necə qoruyaq?

# Mənəvi dəyərlərimiz milli kimliyimizdir...

*Yeganə BAYRAMOVA*

Xalqımızın qədim tarixə malik mədəni irsi var. Mədəniyyətimizin qorunması və inkişafı həm də milli dövlətçiliyimizin qorunması deməkdir. Tarixin müxtəlif dövrlərində çətinliklərlə üzləşən xalqımız dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, milli-mənəvi dəyərlərinə daim sahib çıxıb. Keçmişini unutmayan, bu günü ilə qürur duyan, gələcəyə böyük inamla baxan xalqlar daim tarixin sərt sınaqlarından üzüağ çıxır, davamlı inkişafı ilə diqqət mərkəzində olur.

Milli dəyərlərimizə, adət-ənənələrimizə biganə münasibət gələcəyimiz üçün yaxşı heç nə vəd etmir. Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər müəyyən zaman kəsiyində “əriyib” yox olublar. Hazırda əsrlər boyunca yaşadılan mənəvi irsimizin mühafizəsi dövlət siyasətinin də əsasını təşkil edir.

**Dövlətçilik tariximiz bu günün, ya da dünənin deyil...**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan tarixçi-alim Faiq Ələkbərli bildirib ki, tarixin istənilən dövrünü araşdırsaq, Azərbaycan dövlətçiliyini, mədəniyyətini görə bilərik. Onun sözlərinə görə, dövlətçilik ənənələrimizə və mədəni dəyərlərimizə nəzər yetirəndə çox şeyin dəyişmədiyini görürük: “Azərbaycanın bu gün coğrafiyasına daxil olan yüzlərlə, minlərlə tarixi abidələr, kitabələr, daş yazılar sübut edir ki, dövlətçilik tariximiz bu günün, ya da dünənin deyil, daha qədim dövrdən formalaşan bir sistemdir. Təkcə işğaldan azad edilmiş ərazilərdə 2700 alban dövrünə aid abidəmiz var. Bura Azərbaycanın bütün coğrafiyasını əlavə etsək, bunun sayı bəlkə də 5000-dən çox olar. Eyni zamanda daha qədim dövrlərə aid 10 minə yaxın abidələrimiz mövcuddur. Bunlar hamısı təkcə tikili formasında deyil, daş kitabələr, daş yazılar, dəfn olunmuş insanların qəbirləri formasında və heykəllərdə özünü göstərir”.

**Açıq səma muzeyləri yaradılmalıdır**

F.Ələkbərlinin sözlərinə görə, abidələrdə olan naxışlar, işarələr, ornamentlə və yazılar bugünkü dövrdə yaşadığımız mədəniyyətin qaynaqlarıdır: “Abidələrimizi araşdıranda görürük ki, bu gün mövcud olan adət-ənənələrimiz, mədəniyyətimiz, xalçaçılıq və musiqimizin hamısı bir-birini tamamlayır. Azərbaycanı turizm bölgəsinə çevirmək üçün açıq səma muzeyləri yaratmalıyıq. Belə muzeylərimiz çox azdır. Bu gün Azərbaycanın açıq səma altında muzeylərinə baxsaq, cəmi 3-4 dənə muzeyimiz var. Qobustan, Şirvanşahlar, Qız qalası və s. Məsələn, Yeddi Günbəz açıq səma muzeyinə çevrilə bilər. Qaxda, Şəkidə böyük mədrəsələr var. Onları da açıq səma muzeyinə çevirmək olar. Qaxda və Zaqatalada abidələrimiz var. Elə Pəri qala özü açıq səma altında muzeydir. Bakıda İçərişəhərdə, Qız qalasının yanında 11-12-ci əsrə aid qədim mədrəsəni və qədim hamamı ticarət mərkəzi ediblər. Orada əşya satışı həyata keçirilir. Şirvanşahlar sarayının arxasında 11-ci əsrdə Məkkənin Şərq və Qərb qapısının rəhbərlərinin birgə qərarı ilə ziyarətə gedə bilməyənlər üçün ikinci bir ziyarət ocağı qurulmuşdu. Onun tikildiyi format quruluşu eynilə Məkkədəki kimidir. Bunu gərək təbliğ edək və turizmimizi inkişaf etdirək”.

**Bu abidələrə QR kod stendləri yerləşdirməliyik...**

Tarixçi qeyd edib ki, Azərbaycan televiziya kanallarında tarixi-mədəni abidələrlə bağlı verilişlər hazırlanmalı, mütəxəssislər dəvət olunmalı və maraqlı məlumatlar verilməlidir: “Dağılmış və dağılmaqda olar abidələri müəyyənləşdirib QR kod vasitəsilə stendlər yerləşdirməliyik. QR kod formatında telefonla yaxınlaşıb sistemə girəndə həmin abidənin tarixi, restavrasiya olunmuş forması gələn qonaqlara elektron formada təqdim olunmalıdır. Diri baba türbəsi dünyanın 10 böyük möcüzəsindən birinə daxildir. Qədim tikililər bərpa olunmalıdır. Telekanallar daha çox dövlətçilik tarixini, milli adət-ənənələri, elm və mədəniyyəti təbliğ edən verilişlər hazırlasalar, gənc nəsil məlumatlı olar. Televiziyalarda ancaq şou-biznes xəbərləridir. Gəzməli, görməli yerlər adı ilə gedib toyları çəkirlər. Qavaldaş dünyada ən qədim musiqi aləti sayılır. Qavaldaşla bağlı xüsusi kurslar açılmalıdır. Uyğun olaraq qədim rəqslərimiz bərpa olunmalıdır. Qədim rəqslərimizin, yallılarımızın növləri televiziyada tez-tez təqdim olunmalıdır. Qərbi Azərbaycan, Naxçıvan, Qarabağ və digər zonaların yallılarını bərpa etməliyik. Azərbaycanda ciddi şəkildə böyük muzey yoxdur. Dünya muzeylərində bizim minlərlə abidələrimiz var. Ölkəmizdən daşınmış qədim əşyalarımızın ən azından prototiplərini təqdim etməliyik. Elektron muzeylər yaratmalıyıq. Nadir şah, Şah İsmayıl ilə bağlı əşyalar, Gəncə qapıları Gürcüstan muzeyində saxlanılır. Azərbaycan rəssamlarının əsərləri, xalçalarımız, qədim qablarımız Ermitajda, Viktoriya və Albert muzeyində sərgilənir. Azərbaycan məktəblərində mədəni irslə bağlı dərsliklərimizdə materiallara yer verilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasının nəznində abidələrimizin öyrənilməsi və araşdırılması mərkəzi olmalıdır. Hər bir rayonun özündə həmin mərkəzin nümayəndəliyi olmalıdır”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**


# İllüminatlar kimdir?

## İllüminatlar! Bu sözdə çox sirlər, eləcə də uzun bir tarix gizlənir...

İstənilən sui-qəsd nəzəriyyəçisi bu gizli təşkilatın uzun əllərinin dünya hökumətlərinə və banklarına necə nüfuz etdiyini, liderlərini necə ələ keçirmək istədiyini, onların artıq bütün dünyanı zəbt elədiyini iddia edə bilər. Amma bu gizli, həm də çox məşhur strukturun o qədər də zəngin olmayan ciddi bir tarixçəsi var.

### Kilsənin düşmənləri

“İllüminat” adı ilk dəfə 1492-ci ildə İspaniya kilsə inkvizisiyasının protokollarında çəkilir. Kilsənin “bidətçi” elan etdiyi qrupun üzvləri özlərini “illüminadolar” adlandırırdılar. İllüminadolar kilsə qanunlarından kənara çıxan, bu səbəbdən də müqəddəs tribunalın məhkəməsinə çıxarılan xeyli təriqətdən biri idi. Həmin dövrdə kilsənin “mürtəd” elan etdiyi bu şəxslərin başına nələrin gəldiyi, hansı işgəncələrə məruz qaldıqları dəqiqliyi ilə məlum deyil.

Kilsənin qorxusundan uzun müddət gizlinə çəkilmiş həmin qüvvələrin bir dəstəsi 1634-cü ildə Fransanın şimalında özünü “İllüminati” adlandıraraq yenidən peyda olur. Dövlət və kilsə onların varlığından xəbər tutanda İllüminati təlimləri artıq geniş xalq kütlələrinin arasında populyarlıq qazanmışdı. Keşiş Pyer Qeren özlərinin daxili maarifləndirmə təlimini Pikardiya və Flandriya əyalətlərində fəal şəkildə yayırdı. Bidətin əhatə dairəsi o qədər böyük idi ki, getdikcə daha geniş vüsət alan təlimlər haqda kral XIII Lüdovikə xəbər verməli oldular. Kral qatı katolik olduğu üçün təriqətçilərin ən ağır şəkildə cəzalandırılmasını əmr etdi. Beləliklə, Fransada “İllüminat ovu” elə bir miqyas aldı ki, artıq ölkənin şimalındakı həbsxanalarda boş yer tapılmırdı. Həbsxanaların kameraları bidətçilərlə dolu idi. Fransada bir il çəkən sərt repressiyalar nəticəsində təriqət məğlubiyyətə uğradı, onun alovlu liderləri İngiltərə və İsveçrəyə qaçmalı oldular.

### Alimlər niyə təşkilatlanırdı?

Aradan 140 il də ötdü, repressiyalar tədricən səngidi. Növbəti dalğanın başlanğıcı kimi Bavariyanın İnqolştadt şəhərində peyda olan beş nəfər İllüminatçı məxfi olaraq insanlığı təkmilləşdirmək qərarına gəldilər. Bu məqsədlə onlar 1776-cı il may ayının 1-də gizli cəmiyyət qurub, onun üzvlərini “İlluminati” adlandırmağa başladılar. Cəmiyyətin rəhbəri vəzifəsini universitetin hüquq professoru Adam Veyşaupt tuturdu. O, təşkilatın ilk beş üzvü qarşısına qlobal vəzifələr qoydu: monarxiyanı respublika ilə, xristianlığı deizmlə (yaradıcı Tanrının varlığını qəbul edən, lakin mistisizmi və dini konsepsiyaları inkar edən doktrina) əvəz etmək. Veyşaupta görə, anadan yaxşılıqla doğulan insan sonradan dinin, dövlətin və digər sosial institutların təsiri altında pozularaq pisləşməyə başlayır. Professor təşkilatın son məqsədini insanın səthi olan hər şeydən azad edilməsində görürdü. Buna nail olmaq üçünsə gizli cəmiyyətin ciddi iyerarxiyasını yaratmaq lazım idi. Veyşaupt əvvəlcə təşkilatın quruluşunu və rituallarını masonlardan götürmək istədi, lakin o zamanlar Almaniyada masonluq qeyri-ciddi imicə malik duruma düşmüşdü. İstənilən yeniyetmə azad masonların bütün sirlərini bilirdi və yaxud yaxın lojanın ünvanını bazardakı alverçilərdən öyrənmək olardı. Ona görə də professor Veyşaupt “İlluminati”nin qayda-qanununu özü hazırlamaq məcburiyyətində qaldı.

Təşkilatın strukturuna əvvəlcə üç səviyyə daxil idi: “dinləyici”, “minerval” və “aydınlanmış minerval”. Daxili qanuna görə, yeni dinləyici iki il böyük yoldaşlarından birinə şagirdlik etməliydi. O, hər şeydə öz “böyüyünə” tabe olmalı, lazım gələrdisə cəmiyyətdənkənar fəaliyyəti haqqında ona hesabat verməliydi. İyerarxiyanın aşağı səviyyəsində təmsil olunan yeni illüminatın bilgisi “bütün insanların həyatını yaxşılaşdırmağa kömək etmək”dən ibarət idi. Cəmiyyətin üzvləri təşkilatın həqiqi siyasi, dini məram və məqsədlərini yalnız minervalların liderinə yaxın olan şəxslərə açıb söyləyə bilərdilər.





Cəmiyyət əsasən elm xadimlərini və universitet müəllimlərini gizli və qapalı şəkildə cəlb etdiyi üçün onların ideologiyası çox ləng yayılırdı. Böyük məqsədə çatmaqda vasitəçi olacaq insanları tapmaq üçün Veyşaupt 1777-ci ildə Münhen Mason Lojasına qoşulur. Professor 1780-ci ildə lojada İllüminat ideyalarından ilhamlanan və onlardan biri olmaq istədiyini etiraf edən baron Adolf fon Kniqqe ilə tanış olur. Kniqqe tezliklə cəmiyyətin liderlərindən birinə çevrilir.

Baronun təklifi ilə İllüminat strukturunda islahatlar aparılır. Bu minvalla onlar üçpilləli sistemdən altıpilləli iyerarxik quruluşa keçirlər. Cəmiyyətin aşağı üzvləri həmin mərhələlərlə irəliləyərək “areopaq” pilləsinə çata, yəni liderə ən yaxın on iki nəfərin cərgəsində ola bilərdilər.

Cəmiyyətin simvollarından biri kitab üzərində oturan Afina bayquşu idi. Yeni liderin təşəbbüsü ilə ayin və rituallar yenidən işlənmişdi. Bütün illüminatların öz çevrələri arasında istifadə etdikləri təxəllüsü vardı. Veyşauptun ikinci adı Spartak, fon Kniqqenin ləqəbi Filo idi. Baron təşkilatı getdikcə fəallaşdırmaqla genişləndirir, fəaliyyət dairəsini tədricən artırırdı. Bunlarla yanaşı, illüminatların sayı da artıb bir neçə yüz nəfərə çatmışdı. Bəzi mənbələrə görə, onların arasında İohan Volfqanq Höte də olub.

Veyşaupt var gücüylə çalışırdı ki, o dövrdə Bavariyada meydana gəlmiş başqa bir gizli cəmiyyətdən - “Rosicrucians”-dan mümkün qədər uzaq olsun. Bu ordenin ideologiyası İllüminatiyə daban-dabana zidd idi. Xristianlığa bağlı təşkilatın bütün üzvləri həm də monarxist idilər.

### Mübarizə və parçalanma

Veyşaupt bu cəmiyyətlə toqquşmaqdan nə qədər qaçsa da, son nəticədə biri-birinin əksinə fəaliyyət aparan təşkilatlar gizli mübarizəyə başladı. Artıq hər iki təşkilat yerli hakimiyyət orqanları üzərində öz rıçaqlarından istifadə etməyə, biri-birinin sərbəst fəaliyyətini əngəlləməyə çalışırdı. İllərlə davam edən bu savaş heç-heçə hesabı ilə başa çatsa da, xal baxımından monarxistləri bir qədər irəli saymaq olardı.

“İllüminat”ın vahid idarəçiliyi uzun sürmür, 1784-cü ildə onların arasında da parçalanma baş verir. İddialı Filo cəmiyyətin lideri kimi Spartakdan daha yaxşı olduğuna inanırdı. Lakin Veyşaupt təslim olmaq istəmirdi. Nəticədə fon Kniqqe bir neçə ən yaxın tərəfdaşı ilə birlikdə təşkilatı tərk edir və hətta illüminatilərin kimliyi, nə işlə məşğul olduqları barədə bir neçə broşür də nəşr etdirir.

### Ölən və dirilən “İllüminat”

Bu materiallar Bavariyanın ən nüfuzlu maarifçi monarxı sayılan Karl Teodora çatır və söz-söhbətlər, ziddiyyətlər onun xoşuna gəlmir. Buna görə də tezliklə ölkədə gizli cəmiyyətləri, xüsusilə də “İllüminat”ı qadağan edən dörd fərman ortaya çıxır. 1787-ci ildə bir neçə cəmiyyətin lideri tutulur və onların respublika qurmaq barədə xəyallarını əks etdirən gizli sənədlər aşkar olunur. Artıq “İllüminat” üzvlərini birbaşa edam cəzası gözləyirdi. Odur ki, Adam Veyşaupt, çətinliklə də olsa, 1830-cu ildə canını repressiyadan qurtararaq Türingiyaya qaça bilir və ömrünün sonunadək burada yaşayır. Bununla da Bavariyada “İllüminat”ın 11 illik tarixi başa çatır.

Lakin bu gizli cəmiyyət məğlub olsa da, asan unudulmur. Bir neçə onillikdən sonra təşkilat sui-qəsd nəzəriyyəsi həvəskarlarının ideyalarında və yazılarında yeni, daha aktiv bir formada üzə çıxdı. Sui-qəsd nəzəriyyəçiləri “İllüminat”ın məğlubiyyətini məqsədli şəkildə özlərinin elan etdiklərini bildirdilər. Bu bəyanat isə onların hələ də gizli sığınacaqlarda təhlükəsiz şəkildə gizləndiyindən, oradan qlobal maliyyə sistemini, eləcə də bütün dünyanı idarə etmək arzusundan xəbər verir...

*Murad Köhnəqala*

## “Azercell Könüllüləri”nin xeyriyyə təşəbbüsləri davam edir

Azercell Könüllüləri
Hər kəsə sevgi və qayğı

“Azercell Könüllüləri” xeyriyyə təşkilatı sosial məsuliyyət öhdəliklərinə və xeyriyyə ənənələrinə sadiq qalaraq 2024-cü ilin ilk yarısında müxtəlif aksiyalar təşkil edib.

İkinci Qarabağ müharibəsi şəhidlərinin həyat yoldaşlarına müasir əmək bazarının tələblərinə uyğun biliklərin aşılanması məqsədilə “Azercell Könüllüləri”nin təşəbbüsü və dəstəyilə onlar üçün xüsusi İKT yönümlü təlimlər təşkil edilib. STEP Kompüter Akademiyası ilə əməkdaşlıqda baş tutan təlimlərdə 20 qadına “SMM Design və “Python Fundamentals” üzrə dərslər keçirilib. Proqramı müvəffəqiyyətlə bitirən iştirakçılar sertifikatla təltif olunublar. Təlimlərə cəlb olunmuş namizədlərin siyahısı Zəfər İB tərəfindən təqdim edilib.

Könüllülərin təşkilatçılığı ilə 2024-cü ilin may ayında talassemiya, hemofiliya və leykoz xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etmək məqsədilə qanvermə aksiyası keçirilib. İki gün davam edən aksiya Mərkəzi Qan Bankının peşəkar tibbi heyəti tərəfindən icra olunub və toplanan qan ehtiyatları Respublika Talassemiya Mərkəzinə yönləndirilib.

İl ərzində Könüllər Bakı və bölgələrdə yaşayan bir sıra aztəminatlı ailəyə dəstək göstəriblər. Həmçinin 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Ramanı qəsəbəsində yerləşən “Nur” uşaq evinə və Əhmədli qəsəbəsində yerləşən “SOS Uşaq Kəndi”nə səfərlər təşkil olunub.

Qeyd edək ki, Azercell əməkdaşlarından ibarət bu xeyriyyə təşkilatı 2004-cü ildən etibarən fəaliyyət göstərir və bu günədək minlərlə xüsusi qayğıya ehtiyacı olan insanlara dəstək verib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4836
Sifariş: 1840
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev